# ŞƏHİD QANI İLƏ QAZANILAN MÜSTƏQİLLİYİMİZ

**Tarixin elə səhifələri var ki, yüz illər ötsə də onu unutmaq mümkün deyil. Təbii ki, bu da həmin səhifələrin birbaşa xalqın ruhuna, yaddaşına, bütövlükdə varlığına qanla, şəhidliklə, mübarizəylə yazılmasından irəli gəlir. Yəni torpağı çiyninə qaldırmaq, xalqın varlığını dünyaya sübut etmək şəhidliyin başlıca göstəricilərindən biri olmaqla bu həm də xalqa, torpağa böyük sevginin ifadəsidi. Deməli, xalq üçün, torpaq üçün canından keçib şəhidlik zirvəsinə yüksələnlər təkcə canlarıyla, cisimləri ilə deyil, həm də ruhlarıyla silinməz bir tarix yazırlar. Bu elə bir tarixdi ki, onun qarşısında bütün hökmlər gücsüz, bütün qüvvələr məğlubiyyətə məhkumdurlar. Bax, bu mənada 20 Yanvar şəhidlərinin mübarizəsi, əzmkarlığı, qətiyyəti, nəhayət şəhidlik zirvələrinə yüksəlmələri dediyimizin ən bariz nümunəsidi.**

Sovet imperiyasının son illərində öz çirkin niyyətini gerçəkləşdirmək, öz laxlamaqda olan sütunlarını möhkəmləndirmək niyyəti ilə atdığı addım bir daha göstərdi ki, imperiya özünü xilas etmək üçün öz təbəələrinin üzərinə tankla, topla getməyə hazırdı. Əgər bir anlıq həmin o illəri göz önünə gətirsək, Pribaltikada, Orta Asiyada, lap elə Cənubi Qafqazda baş verənlər sovet rejiminin iç üzünü bir daha açmış olar. Yəni Gürcüstanda törədilən qanlı hadisə, Alma-Atada axıdılan qanlar göstərdi ki, Sovet İttifaqı özünü xilas etmək üçün qan tökməkdən çəkinmir. Çox təəssüf ki, bu qanın, daha doğrusu, bu qana susamış rejimin caynaqları Azərbaycana doğru da uzandı, bizim də ürəyimizə, bizim də varlığımıza süngülər sancıldı

O illərin canlı şahidləri 20 Yanvar gecəsini yəqin ki, ömürlərinin son anına qədər unutmayacaqlar. Çünki həmin o dəhşətli gecədə Bakı qana bələnirdi... Torpaqlarının işğalına, ərazi bütövlüyünə qəsd edilən bir xalqın etirazlarını boğmaq, haqqını tapdamaq yolu ilə susdurmaq istəyən Moskva, xüsusilə Kreml sahibi olan Mixail Qorbaçov bütün qanunları pozaraq təcavüzə imza atdı. Belə ki, 1990-cı il yanvar ayının 19-da SSRİ Konstitusiyasının 119-cu və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozan Mixail Qorbaçov Bakıda və Azərbaycanın bir neçə şəhərində fövqəladə vəziyyət elan etdi. Bununla da Azərbaycan Respublikasının və onun vətəndaşlarının hüququ ən yüksək səviyyədə pozuldu, tapdalandı. Planlı şəkildə məqsədini gerçəkləşdirən Mixail Qorbaçov 20 Yanvar gecəsi Bakıya qoşun yeridilməsi barədə göstəriş verdi. Onsuz da şəhərin müxtəlif istiqamətlərində mövqe tutub əmr gözləyən sovet-rus ordusu dinc əhalinin toplaşdığı küçə və meydanlara hərbi yürüş etdi. Pərakəndə şəkildə şəhəri güllə-boran edən rus-sovet ordusu qarşısına çıxan hər şeyi məhv edir, hər kəsi öldürürdü. Həmin o qanlı gecədə Azərbaycan xalqı özünün qeyrətli vətəndaşlarından, mübarizə övladlarından 133 nəfərini qurban verdi. Onların arasında yaşlılar, gənclər, məktəblilər, qadınlar, qocalar da vardı. Bu insanlar imperiyadan haqq-ədalət istəyirdilər, hüquqlarının qorunmasını istəyirdilər. Onların tələbi Azərbaycanın ərazi bütövlüyü və bir də Moskvanın ədaləti bərpa etməsi idi. Çox təəssüf ki, Moskva 70 il "qardaşlıq ailəsi"ndə guya eyni



səviyyədə özünə doğma saydığı vətəndaşlarının haqqını tapdaladı. Və əslində bununla da özünün iç üzünü göstərdi, işğalçı və imperialist niyyətini faş etdi. Həmin qanlı gecədə Azərbaycanın 744 nəfər vətəndaşı müxtəlif dərəcəli yaralar aldı, xəstəxanalara düşdü. Həmçinin haqqını tələb edən insanların 841 nəfəri qanunsuz şəkildə həbs olunaraq dörd divar arasına atıldı. Bu azmış kimi imperiya mənsubları Azərbaycanın 112 nəfər mübariz övladını həbs edərək ölkə hüdudlarından kənardakı şəhərlərə aparıb orada Azərbaycandan uzaqda onların üzərində məhkəmə istintaqları qurdular. Qana həris olan bu quldur dəstələr təkcə insanlara deyil, onların malına, mülkünə əmlakına da qəsd etməkdən, ziyan vurmaqdan çəkinmədilər. Məhz həmin gecə 200-dən artıq ev güllə-boran edildi. 80 ədəd müxtəlif markalı avtomobil yararsız hala salındı. Amma

Bəli, baş verən bu böyük faciə imperialist qüvvələrin arzusunu gözündə qoydu. Onlar Azərbaycanı qan içində boğub susdurmaq istədikləri halda bunun əksinin şahidi oldular. Xalq daha da birləşdi, bir yumruğa çevrildi... Milyonlarla insan küçələrə axışdı Şəhidlərin dəfni təkcə hüzn günü kimi yox, həm də milli birlik, mili mubarizə, milli qurtuluş günü kimi də yaddaşlara yazıldı. Moskva açıq şəkildə gördü ki, müstəqillik uğrunda mübarizə aparan Azərbaycanı artıq öz caynaqlarında saxlamaq qüdrətində deyil və məhz 20 Yanvarda axıdılan şəhid qanları həmin o milli müstəqillik yolunda axıdılan qələbə qanı kimi tariximizə yazılmaqla içimizdəki mübarizə əzmini oyatdı, onu oda, alova çevirdi. Belə bir gündə xalqımın səsinə səs verən Ulu Öndərimiz Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək kəskin şəkildə Kremli, onun sahibini, onun siyasətini tənqid etdi. Və vurğuladı ki, "1990-cı ilin yanvar ayının 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edildi". Təbii ki, xalqın istəyi ilə yenidən hakimiyyətə gətirilən Ümummilli liderimiz özünün imzaladığı fərmanlarla, verdiyi göstərişlərlə 20 Yanvar şəhidlərinin və bütövlükdə bu mübarizədə meydanlarda olan hər kəsin haqqını qiymətləndirmək, ruhunu şad etmək istiqamətində böyük işlər gördü. Məhz onun imzaladığı fərmanla "20 yanvar şəhidi" fəxri adı təsis edildi. Həmçinin Ümumilli liderimizin təkidi ilə həmin faciəni araşdıran istintaq qrupu yaradıldı. Hadisəyə siyasi, hüquqi qiymət verən komissiya fəaliyyətə başladı. Ümumiyyətlə, 20 Yanvar faciəsinin bütün çalarlarının araşdırılması məhz Heydər Əliyev cənablarının tələb və tapşırıqları ilə öz rəsmi hüququnu əldə etmiş oldu.

**İndi həmin o 26 il bundan öncə baş vermiş hadisənin detallarını bir daha göz önünə gətirəndə fəxarət hissi ilə xatırlayırıq ki, meydanlara axışan, haqqını, hüququnu tələb edən, müstəqilliyimiz uğrunda sinəsini önə verən insanların arasında Azərbaycanın bütün zümrələri təmsil olunurdu. Burada sıravi vətəndaş da, dövlət məmuru da, ədliyyə işçisi də, ziyalı da, məktəbli də, təqaüdçü də, bir sözlə, bütün Azərbaycan cəm olmuşdu və məhz həmin bütün Azərbaycan da bu günün müstəqil Azərbaycanın yaradılması yolunda qanından, canından keçməyi özünün əsas qayəsi seçmişdi. Bu gün də biz həmin qayə ilə yaşayırıq.**

**Zəminə ABDULLAYEVA**
**Bakı şəhər, 2 saylı Notariat Kontorunun notariusu**